**«Ölkənin kart bazarının ildən-ilə daha sürətli inkişafının şahidi oluruq»**

«Milli kart» MMC-nin əməliyyat şöbəsinin rəisi İlqar İbrahimov Tədris Mərkəzində respublika əhəmiyyətli iqtisadi mövzulara həsr olunmuş konfrans və seminarların təşkilini, fəal müzakirələrin aparılmasını təqdir etmişdir. Onun fikrincə, bu cür tədbirlərin təşkili müxtəlif dövlət qurumları, kommersiya strukturları və vətəndaş cəmiyyəti institutlarının nümayəndələri arasında əlaqələrin genişləndirilməsinə ciddi dəstəkdir.

Ölkənin kart bazarının sürətlə inkişaf etməsini, nağdsız dövriyyənin həcminin genişlənməsini müsbət tendensiya kimi dəyərləndirən İlqar İbrahimov çalışdığı prosessinq şirkətinin 2005-ci ildən bu sahədə həyata keçirdiyi layihələr barədə də məlumat vermişdir. Bildirmişdir ki, hazırda 11 kommersiya bankı və 1 sığorta şirkətinə xidmət göstərən şirkət nağdsız ödənişlərin inkişafı ilə bağlı xüsusi fəaliyyət strategiyasına malikdir: «Biz müştərilərimiz üçün xüsusi bonus proqramları həyata keçiririk. Alış-veriş zamanı nağdsız ödənişlərdən istifadə edən müştərilər topladıqları bonuslara görə müxtəlif hədiyyələr qazanırlar. Hazırda 2 bank «Milli kart» MMC-nin təklif etdiyi bu layihəyə qoşulub. Ümumiyyətlə, müsbət tendensiya odur ki, ölkənin kart bazarının ildən-ilə daha sürətli inkişafının şahidi oluruq. Vergilər Nazirliyinin və Mərkəzi Bankın dəstəyi ilə inkişaf edən nağdsız ödəniş sistemləri bankların da marağındadır. Müxtəlif ödəniş kartlarına malik vətəndaşların sayının çoxalması bankların işgüzar fəallığına müsbət təsir göstərir. Bununla yanaşı, elektron ticarətin genişləndirilməsi üçün də müəyyən layihələr həyata keçiririk».

İlqar İbrahimov hesab edir ki, vətəndaşların nağdsız ödəniş sisteminə etimadının gücləndirilməsi plastik kartlardan istifadə vərdişlərinin yaranması baxımından vacib şərtlərdəndir: «Milli kart» bu addımlardan biri kimi müştərilərinə «SMS-bankinq» xidmətini təklif edir. Yəni kartla aparılan istənilən əməliyyat barədə onun sahibinin mobil telefonuna qısa mesaj göndərilir. Beləliklə, kart sahibi öz iradəsindən kənar əməliyyatlar barədə dərhal xəbər tuta bilir ki, bu da təhlükəsizlik baxımından vacib addımdır. Şirkət elektron ticarət zamanı kart əməliyyatlarının məxfiliyinin təmin edilməsi üçün beynəlxalq səviyyədə tətbiq olunan üçüncü nəsil təhlükəsizlik sistemlərindən istifadə edir».